**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

11 aprel 2026-cı il №13 (9168) www.muallim.edu.az muallim@media.edu.az

## Təhsil sahəsində əməkdaşlıq Azərbaycan və Qazaxıstan arasında mənəvi yaxınlığı daha da gücləndirir



Qazaxıstan və Azərbaycan ali təhsil müəssisələrinin II Rektorlar Forumu

"Study in Azerbaijan" təhsil sərgisi keçirilib

Bax səh.3



# Prezident İlham Əliyev Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak edib

Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək

Bax səh.2



## İMTAHAN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİR EDƏN ƏN EFFEKTİV VASİTƏLƏRDƏN BİRİDİR




"30 ildən çoxdur ki, qəbul imtahanları şəffaf keçirilir

Müstəqillik illərində ali və digər təhsil müəssisələrinə qəbul prosesində ciddi dəyişikliklər həyata keçirilib

İnformatikanın qəbul imtahanlarına daxil edilməsindən sonra bu sahəyə maraq artıb

Hər zaman daha bilikli abituriyentlər daha yüksək nəticə göstərirlər

Daha vacib olan məsələ imtahan sisteminin məzmunu və onun beynəlxalq qiymətləndirmə çərçivələrinə uyğunlaşdırılmasıdır"

**DİM-in 10 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib**

Bax səh.4

## Britaniya universitetlərində təhsil alacaq bacılar:

**"Həmişə bir-birimizi yaxşı nəticələrə təşviq etmişik"**



Həmidə və Nəzrin eyni orta ümumtəhsil müəssisəsində, eyni sinifdə oxuyublar və hazırda eyni ali məktəbdə - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin IV kursunda təhsil alırlar. Qızlar eyni hədəflərlə yola çıxaraq "Times Higher Education" (THE) dünya universitetləri reytinqində ilk üçlükdə yer alan Böyük Britaniyanın Oksford və Kembric universitetlərinin magistratura proqramına qəbul olublar.

Bax səh.6



**Beynəlxalq olimpiadalara hazırlıq planı açıqlandı**

Bax səh.2

**"Mənim üçün ən uca hiss Vətən sevgisidir"**

Bax səh.5

**Təhsil sistemində şagirdlərin tərbiyə olunma prosesi**

Bax səh.7

**"Qələbəmi şəhidlərimizə həsr etdim"**

Bax səh.8

# Prezident İlham Əliyev Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak edib









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 8-də Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Samir Rzayev dövlətimizin başçısına və birinci xanıma mərkəzin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Beynəlxalq Təlim Mərkəzi "Azərbaycan Hava Yolları" QSC-nin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasının ərazisində yaradılıb. Mərkəz uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulub.

Yeni kompleksdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün bu sahədə dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Burada Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramını əks etdirən TWR qüllə simulyatoru, həmçinin hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi quraşdırılıb. Bu sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün imkan yaradır.

Mərkəzdə, həmçinin hava limanlarında real iş şəraitinə uyğun müxtəlif xüsusi avtonəqliyyat vasitələri sürücülərinin bacarıqlarının təkmilləşdirilməsinə imkan verən müasir təlim trenajoru kompleksi quraşdırılıb.

**Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək**

Beynəlxalq Təlim Mərkəzində hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır.

Bundan başqa, Mərkəz fövqəladə vəziyyətlərdə və müxtəlif qəza hallarında hava gəmisi kabininin daxilində təhlükəsizlik tədbirlərinin səmərəli icrası üçün Türkiyənin bu sahədə ixtisaslaşmış və beynəlxalq səviyyədə tanınmış şirkəti olan "SkyArt" tərəfindən "A320/A321 NEO CEET" tipli yeni nəsil hava gəmisi simulyatoru ilə təchiz edilib. Simulyatora "Boeing 787" təyyarəsi üzrə Qapı Təlim Qurğuları (Door Trainers), həmçinin real yanğın şəraitini simulyasiya edən yeni nəsil Yanğınsöndürmə Təlim Qurğuları (RFFT) daxildir.

Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək.

Mərkəz müasir aviasiya sahəsinin tələblərinə uyğun olaraq kadr hazırlığını həyata keçirən ixtisaslaşmış tədris strukturu kimi aviasiya mütəxəssislərinin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayacaq.

Mərkəzin müasir texnologiyalarla təchiz olunması, burada son model uçuş simulyatorlarının quraşdırılması real uçuş şəraitinə yaxın mühitdə təcrübə qazanmağa imkan yaradır ki, bu da ümumilikdə uçuşların təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət daşıyır.



## Elm və təhsil naziri Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri ilə görüşüb

Aprelin 9-da elm və təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün və Türkiyə Respublikası Əmanətlərin Sığortalanması Fondunun nümayəndələri ilə görüşüb.

Görüş çərçivəsində təhsil sahəsində cari əməkdaşlıq və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Nazir müavini Qubada vətəndaşları qəbul edəcək

**Elm və təhsil nazirinin müavini İdris İsayev 14 aprel tarixində Quba şəhərində vətəndaşları qəbul edəcək.**




Qəbulda Quba, Şabran və Siyəzən sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 12 aprel (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 11 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının https://edu.gov.az-/az/contact_us bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə "WhatsApp" vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

**Azərbaycanlı gənclərin nüfuzlu beynəlxalq fənn olimpiadalarına hazırlıq prosesi sürətlə davam edir. Beynəlxalq Olimpiadalara Hazırlıq Mərkəzi tərəfindən idarə olunan bu proses ölkəmizin intellektual potensialını dünya miqyasında nümayiş etdirmək məqsədi daşıyır.**

## Beynəlxalq olimpiadalara hazırlıq planı açıqlandı

**Şagirdlər Respublika fənn olimpiadaları və müsabiqələrinin nəticələrinə əsasən xüsusi hazırlıq mərkəzinə cəlb olunurlar. İlboyu peşəkar təlimçilərin rəhbərliyi ilə intensiv proqram keçən namizədlər arasından yekun imtahanlar vasitəsilə ən güclülər seçilərək Azərbaycanın milli komandalarını formalaşdırırlar.**

Komandaların dünyanın müxtəlif ölkələrində keçiriləcək aşağıdakı nüfuzlu yarışlarda iştirakı planlaşdırılır:

**Riyaziyyat:** EGMO (Fransa), BMO (Yunanıstan), JBMO (Makedoniya), IMO (Çin);

**İnformatika və Texnologiya:** EGOI (İtaliya), ICO (Tunis), IOI (Özbəkistan), IOAI (BƏƏ), EJOI (Serbiya);

**Təbiət elmləri:** IPhO (Kolumbiya), EPhO (İsveç), IChO (Özbəkistan), IMChO (Rusiya), IBO (Litva), IJSO (Özbəkistan);

**Çoxsahəli:** IZHO (Qazaxıstan).

Xatırladaq ki, bu hazırlıqlar gənclərin qlobal rəqabətədavamlılığını artırmaq və ölkəmizin təhsil uğurlarını beynəlxalq səviyyədə təsdiqləmək məqsədi daşıyır.

# Təhsil sahəsində əməkdaşlıq Azərbaycan və Qazaxıstan arasında mənəvi yaxınlığı daha da gücləndirir

## Emin Əmrullayev qazaxıstanlı həmkarı ilə görüşüb






Aprelin 6-da Qazaxıstan Respublikasının Almatı şəhərində keçirilən II Rektorlar Forumu çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev bu ölkənin elm və ali təhsil naziri Sayasat Nurbek ilə görüşüb.

Görüş çərçivəsində Qazaxıstan Respublikası ilə ikitərəfli əməkdaşlıq, eləcə də elm və ali təhsil sahəsində inkişaf perspektivləri müzakirə edilib.

Daha sonra Qazaxıstanın Beynəlxalq İnnovasiya və Texnologiya Universitetində (InnoTech) yaradılmış şəraitlə tanışlıq olub.

## Elm və təhsil nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Qazax Milli Tədqiqat Texniki Universitetini ziyarət edib






**Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Almatı şəhərinə səfəri çərçivəsində aprelin 7-də Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universitetini ziyarət edərək universitetin rəhbər heyəti ilə görüşüb.**

Görüşdə Qazaxıstan Respublikasının elm və ali təhsil nazirinin müavini Talqat Yeşenkulov, universitetin rektoru Meyram Beqentayev və Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev iştirak edib.

Görüş çərçivəsində tərəflər arasında ali təhsil və tədqiqat sahəsində birgə təşəbbüslərin həyata keçirilməsi imkanları müzakirə olunub, o cümlədən universitetin maddi-texniki bazası ilə tanışlıq keçirilib.

Daha sonra elm və təhsil naziri Emin Əmrullayev akademik mobillik proqramı çərçivəsində Qazaxıstanda təhsil alan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri ilə görüşüb.

## Qazaxıstan və Azərbaycan ali təhsil müəssisələrinin II Rektorlar Forumu keçirilib

**Aprelin 6-da Almatı şəhərində Qazaxıstan və Azərbaycan ali təhsil müəssisələrinin II Rektorlar Forumu keçirilib. Forumun rəsmi açılış hissəsindən əvvəl Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek arasında universitet rəhbərlərinin və aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Tərəflər ali təhsil sahəsində dövlətlərarası əməkdaşlığın inkişafı, o cümlədən akademik mobillik, birgə təhsil proqramları, tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi ilə bağlı cari məsələləri müzakirə ediblər.**






Forumun açılış mərasimində salamlama nitqi ilə çıxış edən Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek ölkələrimiz arasında akademik əlaqələrin gücləndirilməsinin strateji əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, həyata keçirilən təşəbbüslər qarşılıqlı akademik fəaliyyətə yeni təkan verib və ölkələrimizin təhsil imkanlarına ikitərəfli marağı gücləndirib. Forum çərçivəsində Azərbaycanın 18 universiteti ilə Qazaxıstanın 29 universiteti arasında 65 yeni memorandumun imzalanması planlaşdırılır.

Nazir Sayasat Nurbek akademik mobillik və tələbə mübadiləsinin artdığını da qeyd edib və bildirib ki, 2025-ci ilin yekununa əsasən, Qazaxıstanın 58 universitetində 346 Azərbaycan vətəndaşı təhsil alır. Eyni zamanda Azərbaycan universitetlərində 180 Qazaxıstan vətəndaşı oxuyur.

Forumda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, Qazaxıstan və Azərbaycan ali təhsil müəssisələrinin II Rektorlar Forumu ölkələrimiz arasında akademik əməkdaşlığın inkişafı baxımından mühüm platformadır. Nazirin sözlərinə görə, son illərdə universitetlər arasında əlaqələrin genişlənməsi, birgə proqramların və akademik mobilliyin artması bu əməkdaşlığın real nəticələrini göstərir.

Nazir çıxışında forum çərçivəsində imzalanacaq yeni anlaşmaların tərəfdaşlığı daha da gücləndirəcəyinə, tələbə və müəllimlər üçün yeni imkanlar yaradacağına inamını ifadə edib.

Forumun rəsmi açılış mərasimindən sonra akademik mübadilə, elmi əməkdaşlıq və birgə təhsil proqramlarının inkişaf etdirilməsi məqsədi daşıyan anlaşma memorandumlarının imzalanması mərasimi keçirilib.

## "Study in Azerbaijan" təhsil sərgisi keçirilib

**Aprelin 6-da Almatı şəhərində yerləşən Əl-Farabi adına Qazax Milli Universitetinin Farabi Hub İnnovasiya Mərkəzində Azərbaycan ali təhsil müəssisələrinin "Study in Azerbaijan" beynəlxalq sərgisinin açılış mərasimi olub.**

Sərgi iki ölkə arasında təhsil və elm sahələrində strateji tərəfdaşlığın gücləndirilməsi, tələbələr, eləcə də gənc mütəxəssislərin Azərbaycanda təhsil almaq imkanları barədə məlumatlandırılması məqsədi daşıyıb.

Sərginin açılış mərasimində Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek, hər iki ölkənin aparıcı universitetlərinin rektorları və təhsil mütəxəssisləri iştirak ediblər.

Sərgidə Azərbaycanın 25-ə yaxın aparıcı universiteti təmsil olunub. Sərgi çərçivəsində abituriyent və tələbələr Azərbaycandakı ali təhsil proqramları, akademik imkanlar və elmi nailiyyətlər haqqında məlumat əldə edə biliblər. Sərgidə həmçinin qrantlar, akademik mobillik, ikili diplom proqramları və qəbul tələbləri ilə bağlı ətraflı məlumatlar verilib.

Sərginin açılışında çıxış edən Qazaxıstanın elm və ali təhsil naziri Sayasat Nurbek bu təşəbbüsün ikitərəfli əməkdaşlığın məntiqi davamı olduğunu vurğulayıb. Qeyd edib ki, ötən il Azərbaycanda təşkil olunmuş "Study in Kazakhstan" sərgisində 2500-dən çox azərbaycanlı gənc iştirak edib. Həmin sərgi zamanı 80-ə yaxın mühüm razılaşma əldə olunub. Bugünkü tədbir də belə səmərəli əməkdaşlığın nəticəsidir.

Elm və təhsil naziri Emin Əmrullayev öz növbəsində təhsildə inteqrasiyanın vacibliyini bildirib. Nazir vurğulayıb ki, Qazaxıstan və Azərbaycan ortaq tarixi və mədəni köklərə malik ölkələrdir. Təhsil sahəsində əməkdaşlıq bu mənəvi yaxınlığı daha da gücləndirir. Nazir qeyd edib ki, bu cür platformalar gənclərə gələcək peşəsini düzgün seçməyə və beynəlxalq rəqabətədavamlı olmağa kömək edir.

Qeyd edək ki, sərgi 7-8 aprel tarixlərində Farabi Hub KazNU Mərkəzində davam edib.

***

Elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan ali təhsil müəssisələrinin "Study in Azerbaijan" beynəlxalq təhsil sərgisi ilə tanış olub.









Nümayəndə heyəti universitet stendlərinə baxış keçirib, sərgi çərçivəsində Azərbaycanın müxtəlif ali təhsil müəssisələri tərəfindən təqdim olunan təhsil proqramları, beynəlxalq əməkdaşlıq imkanları və tələbələr üçün mövcud təqaüd imkanları barədə ətraflı məlumat diqqətə çatdırılıb.

Daha sonra nümayəndə heyəti Farabi Hub İnnovasiya Mərkəzində mövcud şəraitlə tanış olub. Ziyarət zamanı nümayəndə heyətinə mərkəzin fəaliyyəti, eləcə də innovasiya və texnologiya yönümlü layihələr barədə ətraflı məlumat təqdim olunub. Tanışlıq çərçivəsində mərkəzin müasir laboratoriyalarına da baxış keçirilib.

# İMTAHAN MƏZMUNUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİR EDƏN ƏN EFFEKTİV VASİTƏLƏRDƏN BİRİDİR







## Emin Əmrullayev

**"30 ildən çoxdur ki, qəbul imtahanları şəffaf keçirilir**

**DİM-in formalaşdırdığı məlumat bazası cəmiyyət üçün "böyük xəzinə" hesab olunur**

**Müstəqillik illərində ali və digər təhsil müəssisələrinə qəbul prosesində ciddi dəyişikliklər həyata keçirilib**

**İmtahanların çətin və ya asan olması qəbul planına təsir etmir**

**İnformatikanın qəbul imtahanlarına daxil edilməsindən sonra bu sahəyə maraq artıb**

**Hər zaman daha bilikli abituriyentlər daha yüksək nəticə göstərirlər**

**Daha vacib olan məsələ imtahan sisteminin məzmunu və onun beynəlxalq qiymətləndirmə çərçivələrinə uyğunlaşdırılmasıdır**

**Elm və Təhsil Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi arasında sıx əməkdaşlıq həyata keçirilir**

**PISA-nın nəticələri islahatların təsirinin qiymətləndirilməsində mühüm göstərici olacaq**

**İmtahan məzmununun təkmilləşdirilməsi təhsilin keyfiyyətinə təsir edən ən effektiv vasitələrdən biridir**

**İmtahan suallarının real həyatla uyğunluğunun artırılması olduqca vacib məqamdır**

**İmtahan tapşırıqları şagirdlərin nə dərəcədə bilik və bacarıqlara malik olduğunu obyektiv şəkildə müəyyən etməlidir"**

## DİM-in 10 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

**Aprelin 10-da Dövlət İmtahan Mərkəzinin 10 illik yubileyinə həsr olunmuş "Qiymətləndirmə sistemləri: etimad, şəffaflıq və innovasiya" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfransın keçirilməsində əsas məqsəd təhsilin qiymətləndirilməsi və dövlət qulluğu sahəsində əldə olunmuş nailiyyətlər və təcrübənin paylaşılması, eyni zamanda müvafiq istiqamətlər üzrə aktual məsələlərlə bağlı müzakirələrin aparılmasıdır.

Konfransın işində Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, Misir, Cənubi Afrika Respublikası və Keniyadan, eləcə də müxtəlif beynəlxalq təşkilatlardan ümumilikdə 200-dən artıq nümayəndə iştirak edib.

Konfransın rəsmi açılış mərasimində Dövlət Himni səsləndirilib. Daha sonra Mərkəzin 10 illik yubileyinə həsr olunan videoçarx nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə qonaqları salamlayıb və bu 10 ilin milyonlarla vətəndaşımızın həyat yolunun ayrılmaz hissəsinə çevrilmiş bir təşkilatın inkişafında mühüm mərhələ olduğunu qeyd edib. Sədr Mərkəzin tarixinin yalnız bu 10 ildən ibarət olmadığını, onun xeyli əvvəl — ölkədə subyektiv qərarlara deyil, biliklərə əsaslanan qiymətləndirmə sisteminin yaradılması lehinə prinsipial siyasi seçimin edildiyi andan başladığını vurğulayıb.

Məleykə Abbaszadə çıxışının sonunda təşkilata göstərilən etimada və hərtərəfli dəstəyə görə ölkə rəhbərliyinə təşəkkür edib və hər kəsə minnətdarlığını bildirib.

Daha sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Bakıda qiymətləndirmə sahəsində bu cür beynəlxalq tədbirin təşkilinin əhəmiyyətini vurğulayıb və ölkəmizdəki mərkəzləşdirilmiş imtahan modelinin şəffaflıq və iştirakçılar arasında rəqabət yaratması baxımından həlledici rolunu qeyd edib. Emin Əmrullayev konfransın təhsilin qiymətləndirilməsi sahəsində ən yaxşı təcrübələri bölüşmək və qarşıya çıxan ümumi problemləri müzakirə etmək üçün əlverişli platforma olacağına inandığını bildirib. Nazir qeyd edib ki, Dövlət İmtahan Mərkəzi vətəndaşlar haqqında ən geniş informasiyaya malik bir qurumdur və bu gün konfransda əyləşənlərin çoxu vaxtı ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının və ya Dövlət İmtahan Mərkəzinin imtahanlarından keçən şəxslərdir. Nazirin sözlərinə görə, Azərbaycan xalqı və dövləti qarşısında ədalətli imtahanların təşkili əldə olunmuş uğurlardan biridir. Qeyd edilməlidir ki, DİM tərəfindən keçirilən imtahanlar təkcə ali və orta ixtisas müəssisələrinə qəbul funksiyası daşımır. Həmin imtahanların nəticələri müəyyən təhlillər aparmaq və buna uyğun olaraq strateji qərarlar qəbul etməyə imkan yaradır.

Türkiyənin Ölçmə, Seçmə və Yerləşdirmə (ÖSYM) Mərkəzinin prezidenti Bayram Əli Ərsoy Dövlət İmtahan Mərkəzinin yaradılmasının 10-cu ildönümünü qeyd etmək üçün bir araya gəlməkdən məmnun olduğunu qeyd edib və bu əlamətdar görüşü yalnız bir qurumun yubileyi deyil, eyni zamanda ölçmə və qiymətləndirmə sahəsində ortaq keçmişi və ortaq gələcəyi paylaşan qurumların görüşü kimi dəyərləndirib.

Digər çıxışçılar konfransın təhsilin qiymətləndirilməsi və dövlət qulluğu sahəsində peşəkar mübadilə vasitəsinə çevriləcəyinə və stimullaşdırıcı rol oynayacağına əminliklərini ifadə ediblər.

Açılış mərasimində həmçinin Kolumbiya Universitetindən (ABŞ) Amra Sabik-El Rayessin "Süni intellekt dövründə qiymətləndirmə sistemlərinin qorumalı olduğu dəyərlər" mövzusunda videomüraciəti təqdim olunub.

Konfransda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin imtahan mərkəzləri arasında təhsildə qiymətləndirmə və imtahanların keçirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsi haqqında Niyyət Protokulu da imzalınıb.

Rəsmi açılışdan sonra beynəlxalq elmi-praktik konfrans panel müzakirələrlə davam edib. Sessiyalar yazı işlərinin qiymətləndirilməsi, xarici ölkələrdə qiymətləndirmə sistemi, beynəlxalq qiymətləndirmə tədqiqatları, dillər üzrə qiymətləndirmə, yaradıcılıq və bacarıqların qiymətləndirilməsi, dövlət qulluqçularının seçimi, dövlət qulluğuna qəbulda səriştə əsaslı qiymətləndirmə, elektron imtahan sistemləri və digər mövzuları əhatə edib.

# Şagirdlərin inkişafında intellektual oyunlar və bilik yarışları xüsusi rol oynayır





## Firudin Qurbanov Türkmənistanda keçirilən 3-cü Beynəlxalq Riyaziyyat Olimpiadasının açılışında iştirak edib

**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Türkmənistanın Aşqabad şəhərinə səfər edib.**

Səfər çərçivəsində nazir müavini Türkmənistanın təhsil naziri Cumamırat Qurbangeldiyevin dəvəti əsasında Məhtimqulu adına Türkmən Dövlət Universitetində məktəblilər üçün təşkil edilmiş 3-cü Beynəlxalq Riyaziyyat Olimpiadasının açılış mərasimində iştirak edib.

Olimpiada çərçivəsində Firudin Qurbanov şagirdlərin nümayiş etdirdiyi lövhələrə və guşələrə baxış keçirib.

Olimpiadanın açılış mərasimində çıxış edən nazir müavini Azərbaycan və Türkmənistan arasında dostluq münasibətləri, elm və təhsil sahəsində əməkdaşlıq barədə tədbir iştirakçılarını məlumatlandırıb. Çıxışı zamanı Firudin Qurbanov şagirdlərin inkişafında intellektual oyunların və bilik yarışmalarının rolunu xüsusi vurğulayıb. Nazir müavini olimpiada iştirakçılarına tövsiyələrini çatdıraraq uğurlar arzulayıb.

Olimpiadanın açılış mərasimindən sonra nazir müavini Məhtimqulu adına Türkmən Dövlət Universitetinin rəhbər heyəti ilə görüşüb, universitetin muzeyini, eləcə də dahi mütəfəkkir və şair Məhtimqulu Fəraqiyə həsr olunmuş guşəni ziyarət edib.

Qeyd edək ki, 3-cü Beynəlxalq Riyaziyyat Olimpiadasının açılış mərasimində, həmçinin Məhtimqulu adına Türkmən Dövlət Universitetinin rəhbər heyəti ilə keçirilmiş görüşdə Azərbaycan Respublikasının Türkmənistandakı fövqəladə və səlahiyyətli səfiri Qismət Gözəlov da iştirak edib.



## Firudin Qurbanov Türkmənistanın təhsil nazirinin müavinləri ilə görüşüb

**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Türkmənistana səfəri çərçivəsində bu ölkənin təhsil nazirinin müavinləri ilə görüşüb.**

Görüş çərçivəsində hər iki ölkədə son zamanlar təhsil sahəsində aparılan islahatlar haqqında fikir mübadiləsi aparılıb, nəticələr, problemlər, onların həlli yolları ilə bağlı təkliflər, eləcə də təhsil sahəsində gələcək əməkdaşlıq imkanları müzakirə edilib. Nazir müavini iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb, görüş zamanı müasir texnologiyaların, eləcə də süni intellektin təhsildə tətbiqinin gücləndirilməsinə dair müzakirələrə xüsusi önəm verib.

# APREL DÖYÜŞLƏRİNİN QƏHRƏMANI



**2016-cı ilin aprelində baş verən və Azərbaycan tarixində qəhrəmanlıq salnaməsi kimi yazılan Aprel döyüşləri zamanı yüzlərlə igid oğul Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucaldı. Onlardan biri də könüllü olaraq döyüş bölgəsinə yollanan Əsədli Fərman Elçin oğlu idi.**

**"Azərbaycan müəllimi" şəhidin qəhrəmanlıq yoluna işıq salıb.**

**Şəhid ailələrinə göstərilən diqqət və qayğının ifadəsi olaraq Fərman Əsədliyə şəhid statusu verilib, Prezident tərəfindən "Şücaətə görə" medalı ilə təltif olunub. Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Samux rayonunda yaşadığı küçəyə də onun adı verilib.**

# Könüllü fədakarlıq nümunəsi

## "Bizə qoyduğu ən böyük xatirə qızıdır"

Döyüşlərin başlandığını eşidən Fərman Əsədli mülki şəxs olmasına baxmayaraq, tərəddüd etmədən yaxın qohumu ilə birlikdə Tərtər rayonu istiqamətinə yollanır. Məqsədi sadə idi — yaralılara, mülki əhaliyə və əsgərlərə yardım etmək, onlara mənəvi dayaq olmaq.

Ağır döyüşlərin getdiyi məqamda göstərilən bu dəstək Azərbaycan əsgərinin ruhunu daha da yüksəldir. Fərman və onun kimi könüllülərin varlığı döyüşçülərə arxalarında xalqın dayandığını bir daha hiss etdirirdi.

Son səfəri isə zabit Mübariz Rəhimovu xidmət yerinə apararkən olur. Şıxarx qəsəbəsi yaxınlığında düşmənin atdığı D-30 mərmisinin qəlpələri nəticəsində ağır yaralanan Fərman Əsədli xəstəxanada vəfat edərək şəhidlik zirvəsinə ucalır.

Cəmi 26 il ömür sürən Fərman Əsədli qısa həyatında böyük iz buraxdı. Ailəli idi, körpə övladı vardı. Lakin o, şəxsi rahatlığını düşünmədən Vətənə xidmət borcunu üstün tutdu.





## "O, ürəyi ilə yaşayan insan idi"

Fərman Əsədlinin tələbəlik yoldaşı, dostu Mirzə Məmmədov da onu səmimiyyəti, sadəliyi və dürüstlüyü ilə xatırlayır: "2007-ci ildə məktəbi bitirdikdən sonra Gəncə Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin "İqtisadiyyatın hüquqi tənzimlənməsi" ixtisasına qəbul olunmuşam. Elə həmin tələbəlik illərində Fərman Əsədlini tanımışam. Biz eyni qrupda təhsil almışıq. Fərman mehriban dost idi... Hər bir məsələyə yanaşması ürəkdən idi. O, hər kəsə səmimiyyətlə yanaşardı".

Onun xarakterində ən çox seçilən cəhət ədalətli olması idi: "Heç vaxt haqsızlığa göz yummazdı. Çox sadə və yumşaq ürəkli idi. Ürəyi çox açıq idi".

Dostları onun həyat seçimlərini xatırlayarkən Fərmanın vətəndaş mövqeyini xüsusi qeyd edirlər: "Əsgər olmayıb, vətəndaş olub. Amma o heç nə düşünmədən, Vətənə kömək lazım olan vaxtda gözünü qırpmadan getdi".

Onun insanlarla münasibəti və qazandığı hörmət hər yerdə eyni idi — istər mülki həyatda, istərsə də hərbi mühitdə: "Bizim hərbi hissədə 2000 nəfər var idi. Əsgərindən tutmuş zabitinə qədər hamı Fərmanı tanıyırdı. Mehriban aurası hamının ona qarşı hörmətini qazandırmışdı".

Bu xatirələr Fərmanın qısa ömrünün necə böyük mənaya sahib olduğunu bir daha göstərir: "Fərman 26 yaşa ölməzliyi sığdırdı. Cismən bu dünyadan köçsə də, onun xatirəsi yaşayır".

Onun yoxluğuna təsəlli verən ən böyük mənəvi bağ isə qızıdır: "Bizə qoyduğu ən böyük xatirə qızıdır. Xatirəyə baxanda Fərmanı xatırlayırıq".

Fərman Əsədli bu gün təkcə bir şəhid kimi deyil, həm də bir insanlıq nümunəsi kimi xatırlanır. Onun həyatı göstərir ki, qəhrəmanlıq yalnız döyüş meydanında deyil, həm də gündəlik davranışlarda, insanlara münasibətdə, mərhəmətdə və dürüstlükdə formalaşır. Onun adı verilən küçə, haqqında yazılan kitablar və ən əsası insanların yaddaşında yaşayan xatirəsi — bütün bunlar Fərman Əsədlinin ölməzliyinin sübutudur.

## Müəllim xatirəsi: "Həm qürur hissi keçirir, həm də kövrəlirəm"

Fərman Əsədlini yaxından tanıyan müəllimlər onun haqqında böyük sevgi və qürurla danışırlar. Samux rayon Sərkar kənd Nizami Gəncəvi adına tam orta məktəbin biologiya müəllimi Turkan Əsədova xatirələrini bölüşür:

"Mən Fərman Əsədlini 7, 8 və 9-cu siniflərdə tanımışam. Ona biologiya dərsi demişəm. Etiraf edim ki, Fərman mənim üçün sadəcə dərs dediyim bir şagird deyildi… O, xarakteri, davranışı və insanlığı ilə yaddaqalan nadir uşaqlardan idi".

Fərman hər zaman mərdliyi, mərhəməti və gözəl rəftarı ilə yaşıdlarından seçilirdi. Çox mehriban, diqqətli və daxilən işıqlı bir uşaq idi. Onun pozitiv aurası vardı — sinfə daxil olanda sanki mühit dəyişirdi. Məktəbdə keçirilən bütün tədbirlərdə aktiv iştirak edərdi. Ən təsir edən məqamlardan biri isə onun imkanları zəif olan şagirdlərə dəstək göstərməsi idi. Elə edirdi ki, heç kim tədbirlərdən kənarda qalmasın.



Bayramlarda və xüsusi günlərdə bütün müəllimləri tək-tək təbrik edərdi. Hətta məktəbdən kənarda belə diqqətini əsirgəməz, müəllimlərinin evinə gedib hal-əhval tutardı.

Bu gün onun haqqında danışarkən həm qürur hissi keçirirəm ki, belə bir şagirdə dərs demişəm, həm də kövrəlirəm. Fərman kimi insanlar unudulmur…".

**Firuzə CÜMŞÜD,**
**Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi**

# Milli Qəhrəman İbad Hüseynov: "Mənim üçün ən uca hiss Vətən sevgisidir"

**Azərbaycanın Milli Qəhrəmanı İbad Hüseynov "Məktəbdə..." layihəsinin qonağı olub. Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən reallaşdırılan layihənin budəfəki görüşü Azərbaycanın Mili Qəhrəmanı İlqar Mirzəyev adına 98 nömrəli tam orta ümumtəhsil məktəbində keçirilib. Qonaq görüşdən əvvəl Azərbaycanın Milli Qəhrəmanı İlqar Mirzəyevin büstü önünə gül dəstəsi qoyub.**






İbad Hüseynov şagirdlərlə I Qarabağ müharibəsi dövründə yaşanan ağır sınaqlardan, şərəfli döyüş yolundan, Vətən uğrunda mübarizənin əhəmiyyətindən və qəhrəmanlıq anlayışından danışıb. Milli Qəhrəman böyük zəfərin başlanğıcı olan Aprel döyüşləri və 44 günlük Vətən müharibəsində qazanılan qələbədə Azərbaycan Ordusunun rəşadətindən, hərbi hazırlığından və yüksək döyüş ruhundan bəhs edib. Gənclərə vətənpərvərlik ruhunun aşılanmasının vacibliyindən, bu məsələdə məktəb və müəllimlərin üzərinə düşən vəzifələrdən söz açan İ.Hüseynov Vətən sevgisi ilə yetişən gəncliyin milli dəyərlərə sadiq, güclü və məsiliyyətli şəxsiyyətlər kimi formalaşacağını vurğulayıb. "Mənim üçün ən uca hiss Vətən sevgisidir" deyən Milli Qəhrəman şagirdlərə bu sevgini daim uca tutmağı, onu sadəcə sözdə deyil, əməllə sübut etməyi tövsiyə edib, uşaqları maraqlandıran sualları cavablandırıb.

"Məktəbdə…" layihəsinin əsas məqsədi şagirdlərdə mənəvi-əxlaqi dəyərlərə hörmət və mütaliəyə marağı artırmaq, vaxtın düzgün idarə olunması, sosial şəbəkələrə aludəçiliyin aradan qaldırılması və mövcud imkanlardan səmərəli istifadə yollarını təbliğ etməkdən ibarətdir.

Qeyd edək ki, layihənin informasiya dəstəyi "Kaspi" qəzeti və Kaspi.az saytıdır.

Görüşü Təhsil TV də işıqlandırır.

**ADPU-nun Quba filialında Vətən müharibəsi şəhidi, kapitan Aqil Məlikovun xatirəsinə həsr olunmuş "Vətənə sədaqətin və hərbi səfərin rəmzi olan həyat: Şəhid kapitan Aqil Məlikovun qəhrəmanlıq yolu" adlı anım tədbiri keçirilmişdir.**

# Şəhid kapitanın qəhrəmanlıq yolu

Vətən müharibəsi şəhidi, kapitan Aqil Məlikovun xatirəsinə həsr olunmuş tədbir iştirakçıları əvvəlcə filialda şəhid adını daşıyan auditoriyanı ziyarət ediblər. Ziyarət zamanı şəhidin valideynləri, həyat yoldaşı - ADPU-nun Quba filialının əməkdaşı, akademik məsləhətçi Günel Məlikova, övladları Xədicə və Süleyman, ailə üzvləri və qonaqlar iştirak ediblər.



Giriş sözü ilə şəhidin qızı Xədicə Məlikli təsirli çıxış edərək qonaqları salamlayıb.

Tədbirin əvvəlində Ümummilli Lider Heydər



Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Şəhidin xatirəsinə həsr olunmuş "Hər nə olsa şərəfimdir" adlı videoçarx nümayiş etdirilib.

Filialın direktoru, fizika elmləri doktoru, professor Yusif Alıyev çıxış edərək şəhid kapitan Aqil Məlikovun və ümumilikdə Vətən uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin şərəfli ömür yolundan bəhs edib. Professor Aqil Məlikovun hərbi fəaliyyətinə toxunaraq, onun qəhrəmanlıqla dolu qısa, lakin mənalı həyat yolunu diqqətə çatdırıb, 44 günlük Vətən müharibəsinin ilk şəhidlərindən biri kimi düşmənin keçilməz hesab olunan Ohanyan səddinin yarılmasında göstərdiyi igidlikdən və Zəfərə aparan yolda şərəflə şəhadətə yüksəlməsindən söz açıb. Eyni zamanda, ölkə rəhbərliyinin şəhid ailələrinə göstərdiyi xüsusi diqqət və qayğını vurğulayıb. Aqil Məlikovun Vətən qarşısında göstərdiyi xidmətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə yüksək qiymətləndirilərək o, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", III dərəcəli "Qüsursuz xidmətə görə", "Vətən uğrunda" (ölümündən sonra), "Füzulinin azad olunmasına görə" (ölümündən sonra) və "İgidliyə görə" (ölümündən sonra) medalları ilə və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

Sonra Quba Rayon İcra Hakimiyyəti Başçısının müavini Səidə Abbasova, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Quba rayon şöbəsinin rəisi, polkovnik Yasin Aşurov, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi, Memarlıq və İnşaat Universitetinin müəllimi Fəxri Aydəmir, "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, şəhid anası Tünzalə Abduləlimova, istefada olan xüsusi təyinatlı, II qrup Vətən müharibəsi əlili Rəşad Novruzov, ehtiyatda olan polkovnik-leytenant, Vətən müharibəsi iştirakçısı Ayaz Qasımov, mayor Səid Abbasov, eləcə də şəhidin atası Niyaz Məlikov çıxış edərək qəhrəman şəhid Aqil Məlikov haqqında fikirlərini bölüşüblər. Filialın sosial və humanitar məsələlər üzrə direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru Aysel Şeydayevanın moderatorluğu ilə tədbir filialın istedadlı tələbələri Sevda Müslümova və Günəş İskəndərovun ifasında bədii kompozisiya ilə davam etdirilib. Tədbirdə həmçinin şəhid kapitan Aqil Məlikovun atası Niyaz Məlikov Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktoru professor Yusif Alıyevin adından Təşəkkürnamə ilə təltif edilib.



# Elmi uğurların artmasında magistrantların üzərinə böyük məsuliyyət düşür

## Magistrantların ənənəyə çevrilmiş növbəti elmi konfransı keçirilib



### “Bu konfrans magistrantların elmi-tədqiqat işlərinin nəticələrinin elmi ictimaiyyətlə birlikdə müzakirəsi üçün yaxşı platformadır”

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) “Təhsildə menecment və yeni təlim texnologiyaları” Magistrantların IX Respublika elmi konfransı keçirilib. 7-8 aprel tarixlərdə keçirilən konfransın işində universitet rəhbərliyi, professor-müəllim heyəti, ADPU-nun və müxtəlif ali təhsil və tədqiqat müəssisələrinin magistrantları, elmi ictimaiyyətin nümayəndələri iştirak ediblər.

akademik nüfuz və işəgötürən nüfuzu üzrə 301+, məşğulluq nəticələrinə görə 380-ci yerdə qərarlaşıb. Həmçinin ADPU "QS Avropa 2026" reytinqinin Qərbi Asiya regionu üzrə reytinq sıralamasında 140 ali təhsil qurumu arasında 54-cü sırada yer alıb.

C.Cəfərov universitetdə rəqəmsal inkişaf üzrə fəaliyyət planının hazırlandığını, yeni ixtisaslaşmaların yaradıldığını, beynəlxalq təcrübənin tətbiq olunduğunu və müasir təhsil proqramlarının icrasına başlanıldığını deyib.

Rektor universitetin elmi uğurlarının artmasında magistrantların üzərinə böyük məsuliyyət düşdüyünü bildirərək əlavə edib ki, onlar daim öz bələrin fərdi xüsusiyyətlərini nəzərə almağa, onların tənqidi düşünmə və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə geniş imkanlar yaradır. Eyni zamanda, müəllimləri bilik ötürücüsündən daha çox mentor və fasilitator mövqeyinə yüksəldir”.

Professor onu da bildirib ki, ADPU-da innovativ düşüncəyə malik, peşəkar və məsuliyyətli mütəxəssislər yetişdirmək üçün tədris prosesində müasir texnologiyaların tətbiqi genişləndirilir, beynəlxalq təcrübə öyrənilir və yerli şəraitə uyğunlaşdırılmağa çalışılır.

Professor Asəf Zamanov əlavə etdi ki, 2018-ci ildən təşkil edilən sayca 9-cu bu konfransın ilbəil həm coğrafiyası genişlənir, həm də faydalılığı yüksəlir.

### Konfransda çapa tövsiyə olunan elmi məruzələr topluya daxil ediləcək

İsveçin Höteburq Universitetinin dosenti, İsveç “Azərbaycan Aydınlar Ocağı”nın sədri Səadət Kərimi öz təəssüratlarını bölüşərək, Azərbaycanda elm və ali təhsilin inkişafı istiqamətində atılan



Konfransda ADPU ilə yanaşı, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Naxçıvan Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Mingəçevir Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Universiteti, Xəzər Universiteti və Odlar Yurdu Universitetinin magistrantları iştirak ediblər.

### “Belə elmi konfranslar aktual problemlərin müzakirəsi və yeni ideyaların irəli sürülməsi üçün çox vacibdir”

Plenar iclasda giriş sözü ilə çıxış edən ADPU-nun rektoru, konfransın Təşkilat Komitəsinin sədri professor Cəfər Cəfərov qeyd edib ki, builki konfrans ADPU-nun 105 illik yubileyi ilə əlamətdardır.

Rektor rəhbərlik etdiyi universitetdə son illərdə həyata keçirilən islahatlardan danışıb, yeni layihələrlə bağlı məlumat verib. Onun sözlərinə görə, universitet inkişafın yeni mərhələsinə qədəm qoyur. 2026-cı ilin əvvəlində ADPU ilk dəfə olaraq “QS Dünya Universitetləri Reytinqi Avropa 2026” siyahısında 601-650-ci yerlər intervalında qərarlaşıb. Reytinqdə Pedaqoji Universitet Avropa üzrə fakültə-tələbə nisbətinə görə 57-ci,

üzərlərində çalışmalı, müasir bilik və bacarıqlara yiyələnməlidirlər: “Müasir dövrdə təhsildə sürətli dəyişikliklər baş verir və bu dəyişikliklər təhsilin idarə olunmasına yeni yanaşmaların tətbiqini zəruri edir”.

### “Konfransın mövzusu kifayət qədər aktualdır və strateji əhəmiyyət daşıyır”

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, konfransın Təşkilat Komitəsinin sədr müavini professor Asəf Zamanov müasir təhsilin yalnız biliklərin ötürülməsi prosesi deyil, həmçinin innovasiyaların, idarəetmə bacarıqlarının və texnoloji yeniliklərin inteqrasiyasını tələb edən mürəkkəb bir sistem olduğunu vurğulayıb: “Danılmaz həqiqətdir ki, sürətlə qloballaşan dünyada rəqabətədavamlı insan kapitalının formalaşdırılması təhsildə səmərəli menecment və müasir təlim texnologiyalarının tətbiqindən birbaşa asılıdır. Bu baxımdan konfransın mövzusu kifayət qədər aktualdır və strateji əhəmiyyət daşıyır”.

Prorektorun fikrincə, uğurlu təhsil sistemi çevik qərarların qəbul edildiyi, yeniliyə açıq və tələbəyönümlü idarəetmə modelinə əsaslanmalıdır: “Yeni təlim texnologiyaları - rəqəmsal platformalar, distant və hibrid təhsil modelləri, süni intellekt əsaslı öyrənmə alətləri - tədris prosesində mühüm əhəmiyyətə malikdir ki, bu texnologiyalar da tələ-

addımların çox diqqətəlayiq olduğunu vurğulayıb, gənc tədqiqatçıların praktik tədqiqatlara cəlb olunmasının önəmindən bəhs edib. Bu istiqamətdə ADPU nümunəsində görülən işlərin uzunmüddətli perspektivdə ölkə elminə verəcəyi töhfələri qeyd edib.

ADPU-nun Ümumi fizika kafedrasının müdiri professor Cahangir Hüseynov və Təhsil menecmenti kafedrasının professoru Müseyib İlyasov çıxış edərək təəssüratlarını, magistrantlara öz tövsiyələrini çatdırıblar.

Plenar iclasda ADPU-nun magistrantı Aytac Abbasovanın “Pedaqoji kadr hazırlığının strateji idarə olunmasında beynəlxalq təhsil layihələrinin rolu”, BDU-nun magistrantı Ləman Tağıyevanın “PİSA 2029 çərçivəsində media və süni intellekt savadlılığının qiymətləndirilməsi” mövzularında məruzələri dinlənilib.

ADPU-nun Magistratura və doktorantura şöbəsinin müdiri Rəşad Sadıqov bildirib ki, konfransa təqdim olunan 500-ə qədər məruzənin “Təhsildə strateji idarəetmə”, “İnnovasiyalar və təhsilin keyfiyyəti”, “Təhsildə sosial-psixoloji xidmət”, “Tədrisin müasir problemləri” elmi istiqamətləri üzrə 10 bölmədə müzakirəsi təşkil ediləcəkdir.

Təşkilat Komitəsinin yekun rəyinə əsasən çapa tövsiyə olunan elmi məruzələrin tezisləri konfrans materiallarında nəşr olunacaq.

# Uğur hekayələri

# Britaniya universitetlərində təhsil alacaq bacılar:

## "Həmişə bir-birimizi yaxşı nəticələrə təşviq etmişik"



**Bu dəfə oxucularımızı iki gənc azərbaycanlı qızla - Həmidə və Nəzrin Sadıqova bacıları ilə tanış edirik. Onlar sadəcə uğurlu tələbə deyil, həm də Azərbaycan təhsilinin parlaq nümunəsi, bir ailənin iki böyük sevinci və iki fəxridir. Həmidə və Nəzrin eyni orta ümumtəhsil müəssisəsində, eyni sinifdə oxuyublar və hazırda eyni ali məktəbdə - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin IV kursunda təhsil alırlar. Qızlar eyni hədəflərlə yola çıxaraq “Times Higher Education” (THE) dünya universitetləri reytinqində ilk üçlükdə yer alan Böyük Britaniyanın Oksford və Kembric universitetlərinin magistratura proqramına qəbul olublar.**



### Onların uğur hekayəsi məktəb illərindən başlayır

Hələ Bakıdakı 6 nömrəli məktəb-liseydə təhsil alarkən bacılar erkən yaşlarından yüksək bilik və bacarıqları, qazandıqları uğurları ilə öz yaşıdlarından seçiliblər. Hər ikisi məktəbi qızıl medalla bitirib.

Həmidə deyir ki, məktəb illərində qazandıqları uğurlar, müxtəlif müsabiqələrdə, layihələrdə iştirakları onların analitik düşüncə, tədqiqat bacarıqlarının formalaşmasında mühüm rol oynayıb və gələcək yollarının möhkəm təməlini qoyub.

Nəzrin də məktəbdə əldə etdikləri nailiyyətlərin onları daha böyük hədəflərə istiqamətləndirməkdə xüsusi rolu olduğunu söyləyir.

Yüksək hazırlığın və məqsədə çatmaq əzminin nəticəsidir ki, 2022-2023-cü tədris ilində keçirilən ali məktəblərə qəbul imtahanlarında Nəzrin Sadıqova 660.9, Həmidə Sadıqova isə 660.2 balla BDU-nun Hüquq fakültəsinə daxil olub.

### Magistratura mərhələsi onların həyatında yeni bir səhifə açdı

Qızlar bildirirlər ki, Bakı Dövlət Universitetində aldıqları təhsil onlara güclü hüquqi baza qazandırıb. Xüsusilə analitik düşüncə, hüquqi yazı və tənqidi yanaşma bacarıqlarını inkişaf etdirib. Bu bacarıqlar beynəlxalq proqramlara müraciət edərkən onlara böyük üstünlük verib: “Bakı Dövlət Universitetində aldığımız təhsil bizə beynəlxalq səviyyədə rəqabət aparmaq üçün güclü baza yaradıb. Yüz ildən artıq tarixi olan universitetimizin diplomu xaricdə də tanınır və bu, biz gənclərə müxtəlif imkanlar açır. Hüquq fakültəmizin təhsil səviyyəsi yüksəkdir və heç də xaricdəki oxşar proqramlardan geri qalmır, əksinə, beynəlxalq standartlara uyğundur. Bundan əlavə, universitetdə iştirak etdiyimiz layihələr, tədbirlər və elmi mübadilə imkanları bizə beynəlxalq hüquq mühitində işləmək üçün lazım olan biliklər qazandırdı”.

Magistratura mərhələsi isə bacıların həyatında yeni bir səhifə açdı. Nəzrin Sadıqova Oksford Universitetində, Həmidə Sadıqova isə Kembric Universitetində magistraturada təhsil alacaq.

Həmidə hələ 3-cü kursda oxuyarkən Kembric Universitetinə magistratura təhsili üçün müraciət prosesinə başladığını qeyd edir: “Artıq kifayət qədər araşdırma aparmışdım və müxtəlif universitetlərin proqramlarını müqayisə etmişdim. Nəticədə “Siyasət və beynəlxalq araşdırmalar (əlaqələr)” ixtisasını seçdim. Beynəlxalq hüquq sahəsində ixtisaslaşmaq istəyim olsa da, düşündüm ki, hüquq təhsilimi daraltmaq əvəzinə onu genişləndirmək daha faydalıdır. Qəbul məktubunu aldığım an çox sevindim. Qəbul şansının az olduğunu və rəqabətin çox güclü olduğunu bilirdim, buna görə də bu xəbər mənim üçün böyük bir sürpriz oldu”.

### “Bu, mənim üçün sadəcə bir nəticə deyil, zəhmətin, inamın və səbrin qarşılığı idi”

Nəzrin də deyir ki, Kembric universitetinə və Oksford Universitetlərinə müraciət prosesi kifayət qədər uzun və məsuliyyətli bir mərhələdir: “Bacım kimi mən də bu prosesə erkən başladım və hər addımı planlı şəkildə həyata keçirməyə çalışdım. İlk növbədə, beynəlxalq standartlara uyğun olaraq ingilis dili biliyimi təsdiqləmək üçün IELTS imtahanına hazırlaşdım. Bu mərhələ çox vacib idi, çünki yüksək bal toplamaq müraciətin əsas komponentlərindən biridir. Daha sonra müraciət üçün tələb olunan sənədlərin toplanmasına başladım. Xüsusilə motivasiya məktubu üzərində çox işlədim, çünki bu sənəd mənim məqsədlərimi, niyə məhz bu sahəni seçdiyimi və gələcək planlarımı aydın şəkildə ifadə etməli idi. Ümumilikdə, bu proses mənə yalnız sənəd toplamağı deyil, həm də özümü daha yaxşı tanımağı, məqsədlərimi dəqiqləşdirməyi və uzunmüddətli plan qurmağı öyrətdi. Oksford Universitetində “Hüquq və Maliyyə” (MSc in Law and Finance) ixtisasını seçmişəm. Qəbul məktubunu aldığım anı heç vaxt unutmaram. Bu, mənim üçün sadəcə bir nəticə deyil, uzun müddət çəkən zəhmətin, inamın və səbrin qarşılığı idi. Daxilimdə bir ümid var idi ki, hər şey yaxşı olacaq. Amma eyni zamanda tam səmimi desəm, bəzən şübhələrim də olurdu. Çünki rəqabət çox yüksək idi və dünyanın ən güclü namizədləri bu proqramlara müraciət edirdi. Qəbul məktubunu görəndə isə həm böyük sevinc, həm də daxili bir rahatlıq hiss etdim. Sanki bütün o stres, narahatlıq və gözləntilər bir anda yox oldu. O an başa düşdüm ki, həm zəhmət, həm də inam birlikdə olanda nəticə verir”.

### ”Prezident təqaüdünə layiq görülmək bizim üçün böyük qürur və etimaddır”

Onların zəhməti dövlət səviyyəsində də dəyərləndirilib. Belə ki, hər iki bacı ali məktəbə yüksək balla qəbul olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Prezident təqaüdünə layiq görülüb.

Həmidə bildirir ki, Prezident təqaüdçüsü olmaq onun üçün böyük qürur və etimad göstəricisidir: “Bu status dövlətin mənə olan inamının ifadəsidir. Ali təhsil aldığım 4 il ərzində daha məsuliyyətli, hər zaman bu mükafata layiq olmağa çalışdım. Universitet həyatımda akademik nəticələrimi yüksək səviyyədə saxlayaraq eyni zamanda dərsdənkənar sosial layihələrdə və müxtəlif təcrübələrdə aktiv iştirak edirəm”.

Nəzrin də bacısının fikirlərini təsdiq etməklə yanaşı, deyir ki, Prezident təqaüdçüsü olmaq onun üçün həm böyük qürur, həm də daha çox işləmək üçün motivasiya oldu: “Universitet həyatında ən böyük çətinliklərdən biri vaxtın düzgün idarə olunması və akademik yükün yüksək olması idi. Mən bunu prioritetləri düzgün müəyyənləşdirərək və sistemli şəkildə işləyərək aşdım”.

Təsadüfi deyildir ki, universitet həyatında eyni əzmkarlıqla irəliləyən bacılar yüksək akademik göstəricilərini qoruyub saxlayaraq ali təhsil dövründə də “əlaçı” kimi seçilməyi bacardılar.

### Onlar üçün uğur nədir?

Qızlara ünvanladığımız “Sizin üçün uğur nədir?” sualına cavabları da özünəməxsus oldu.

Həmidə deyir ki, onun üçün uğur bərabərdir “ikiqai”: “Yəni yaponca bu ifadə həyatımda həqiqətən sevdiyim işi tapmaq, ona tam ürəkdən bağlanmaq və bu işi həyatımın məqsədinə çevirməkdir. Bu, yalnız şəxsi məmnuniyyət deyil, həm də başqalarına və cəmiyyətə fayda verməklə davamlı və dolğun uğur qazandıran bir anlayışdır”.

Nəzrinə görə isə uğur yalnız nəticə deyil, həm də prosesdir. Uğur məqsədə doğru davamlı və məqsədyönlü şəkildə irəliləməkdir: “Mənim üçün ən böyük uğur göstəricisi valideynlərimi və bizə dəstək olan hər kəsin sevinib qürurlanmasıdır”.

### “Bir-birimizin uğuruna birbaşa deyil, daha çox arxa planda dayanaraq təsir etmişik”

Bəs görəsən bacı olaraq bir-birlərinin uğurunda nə kimi rolları var? Qızlar deyirlər ki, bir-birlərinin uğurunda rolları daha çox mənəvi dəstək üzərində qurulub: “Biz həmişə bir-birimizi daha yaxşı nəticələrə təşviq edən bir qüvvə olmuşuq. Çətin anlarda bir-birimizə kömək etmişik. Eyni zamanda, konstruktiv şəkildə bir-birimizi tənqid edərək inkişafımıza töhfə vermişik. Yəni biz bir-birimizin uğuruna birbaşa deyil, daha çox arxa planda dayanaraq təsir etmişik. Aramızda rəqabətdən daha çox dəstək mühiti olub. Ətrafdakılar bizi tez-tez müqayisə etsə də, biz heç vaxt özümüzü bir-birimizlə ölçməmişik. Mənim üçün Nəzrin tamamilə fərqli bir insandır və onun üçün də mən eyni dərəcədə fərqliyəm, istəklərimiz və məqsədlərimiz ayrıdır. Doğrudur, yolumuz eyni olub, amma bu yolu hər birimiz özümüz keçmişik. Həmişə bir-birimizə dəstək olmuşuq, lakin işi hər kəs özü görüb”.

### Eyni partadan başlayan yol bu gün iki fərqli dünya universitetinə uzanır

Bəli, qazanılan uğurun arxasında yalnız akademik nəticələr dayanmır. Hər iki bacı üçün əsas amil məqsədyönlülük, səmimiyyət və öz yolunu düzgün dərk etməkdir. Gənc qızlarımızın gələcəyə baxışları da ortaqdır. Hər ikisi xaricdə təhsil aldıqdan sonra Azərbaycana qayıdaraq ölkələrinə töhfə vermək istəyir. Beləliklə, eyni partadan başlayan yol bu gün iki fərqli dünya universitetinə uzanır. Bu isə təkcə iki bacının deyil, həm də Azərbaycanın təhsil uğurunun hekayəsidir…

**Samirə KƏRİMOVA**

# Təhsil sistemində şagirdlərin tərbiyə olunma prosesi və məktəb-valideyn münasibətləri

**Həm müəllimlər, həm də valideynlər uşaqları vətənpərvərlik ruhunda tərbiyə etdirməlidirlər ki, onlar Vətənə bağlı olsunlar, milli ruhda böyüsünlər, milli dəyərlərimizi hər şeydən üstün tutsunlar.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Təhsil sistemində əhatə dairəsinə görə ən geniş sahə olan ümumi təhsil məzmun cəhətdən təlim və tərbiyə komponentlərinin qırılmaz bağlılığından ibarət olmaqla vahid proses kimi, ilk növbədə, fərdin müasir dövrdə cəmiyyət üçün tələbyönümlü, dövlətçilik mövqeli, mədəni-intellektual səviyyəli vətəndaşa çevrilməsinə istiqamətlənmiş dövlət əhəmiyyətli şərəfli bir missiyanı yerinə yetirən yüksək dəyər timsalında qəbul edilir. Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev ümumi təhsili “xalqın mentaliteti, dünya xalqları ilə müqayisə olunacağı səviyyə” adlandırmışdır.**

**Geniş mənada düşünsək, müxtəlif fərqli rəylərə baxmayaraq, dövlət müstəqilliyinin bərpasından ötən bir qərinə ərzində mütərəqqi yerli və beynəlxalq təcrübələrdən yararlanmaqla ölkəmizin ümumi təhsilində məzmun və idarəetmənin, eləcə də infrastrukturun, maddi-texniki bazanın, müvafiq qanunvericilik aktlarının yeniləşdirilib təkmilləşdirilməsi üzrə həyata keçirilən fəaliyyətlər, şübhəsiz, birmənalı qəbul edilməlidir. Həmin dövrdə doğulub formalaşan gənc nəslin böyük əksəriyyətinin vətənpərvər, əqidəli, milli-mənəvi dəyərlərə malik gənclərdən ibarət olduğu da danılmazdır. Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhid və qazi olan qəhrəman oğullar, təbii ki, bugünkü uşaq və yeniyetmələrimiz üçün ibrətamiz nümunədir. Bu mənada hər bir uşağı və yeniyetməni millətin əmanəti dəyərində qəbul etməliyik.**



Lakin o da etiraf olunmalıdır ki, son zamanlar məktəbli uşaq və yeniyetmələr tərəfindən qanunazidd hərəkərlərə yol verilməsi faktları haqlı olaraq cəmiyyətdə ciddi narazılıqla qarşılanır.

Həmişə deyirik ki, uşaqların tərbiyəsində xırda, ötəri məsələ yoxdur, prosesin hər bir detalı xüsusi yanaşma, düşüncə tələb edir. Uşaq və yeniyetmələrin tərbiyə olunma sisteminin yaxşılaşdırılması və təkmilləşdirilməsi ilə bağlı aparılan tədqiqatlara diqqət etsək, məktəblilərin törətdiyi qanunsuz əməllərin başvermə səbəbləri, bir qayda olaraq, aşağıdakı dəlillərlə əsaslandırılır:

- *ailə tərbiyəsindəki boşluqlar, valideynlərin uşaq tərbiyəsi ilə bağlı prinsipial məsələlər haqda məlumatsızlığı;*
- *övladlarının təhsilinə, mənəvi inkişafına, gələcək taleyinə etinasız münasibət bəsləyən valideynlərin mövcudluğu;*
- *məktəb rəhbərliyi və müəllimlərin diqqətsizliyi və məsuliyyətsizliyi, məktəbin valideynlərdən, valideynlərin məktəbdən uzaq düşməsi;*
- *psixoloq xidmətinin yararsızlığı;*
- *telekanallarda, sosial şəbəkələrdə uşaq mənəviyyatına, psixoloji durumuna mənfi təsir göstərən bayağı verilişlərin yayımlanması;*
- *yaşadıqları mühitin uşaqların mənəvi tərbiyəsində pozucu rol oynaması və s.*

Nəzəri cəhətdən həmin mülahizələrin heç biri mübahisə doğurmur çünki dəfələrlə təkrar olunan məlum bir həqiqət var ki, hər hansı uşaq anadan cinayətkar doğulmur, onu bu yola vadar edən müxtəlif səbəblər mövcuddur. Ona görə də ehtimal oluna bilən bu cür hadisələrin qarşısının vaxtında alınması, onların başvermə səbəblərinin minimuma endirilməsi məqsədilə bütün mümkün pedaqoji-psixoloji imkanlardan maksimum istifadə qaçılmaz zərurətdir.

Həmin istiqamətdə elə tədbirlər var ki, çoxları onları “xırda məsələ” sayaraq etinasızlıq göstərə bilərlər. Halbuki məqsədyönlü və sistemli təşkil edilərsə, müsbət nəticələnəcəyi istisna olunmur. Bu, ilk növbədə, valideynlərin maarifləndirilməsi ilə bağlıdır. Sirr deyil ki, sürətli elmi-texniki inkişaf əsrində yaşasaq da, biliksizlik və məlumatsızlıq ucbatından cəmiyyətdə məktəbin, təhsilin, məktəblə işgüzar pedaqoji əlaqələrin rolunu qiymətləndirməyən, “əzizim əzizdi, tərbiyəsi ondan da əzizdi” zərbi-məsəlini unudaraq övladlarının ailə şəraitində tərbiyəsinə başdansovdu yanaşan və onlara həyatda düzgün istiqamət verə bilməyən, uşağa pozucu təsir edəcək yad amilləri diqqətdən qaçıran valideynlər kifayət qədərdir. Belə bir vəziyyətin mövcudluğu isə həmin ailələrdə böyüyən uşaqların tərbiyəsində, təhsil şəraitinə uyğunlaşmasında xeyli çətinliklər yaradır. Bu məqamda Ulu Öndər Heydər Əliyevin konseptual bir fikrini fəaliyyət istiqaməti kimi nəzərə çatdırmaq yerinə düşərdi: **“Valideynlər yaxşı başa düşməlidirlər ki, uşaqların tərbiyəsi heç də ailənin daxili işi, hər kəsin şəxsi işi deyildir. Bu, vətəndaşın konstitusiyadan irəli gələn vəzifəsidir, cəmiyyət qarşısında borcudur və hər bir valideyn məsuliyyətini tamamilə dərk edərək öz borcunu yerinə yetirməlidir”.** Hesab edirik ki, mənafeləri nəzərə alınmaqla müasir dövrdə uşaqların təlim-tərbiyəsinin təşkili ilə bağlı məsələlər ətrafında valideynlərin maarifləndirilməsi prosesini tənzimləyən əsasnamə tipli metodik sənədin hazırlanmasına və ona uyğun olaraq fəaliyyətlərin həyata keçirilməsinə ehtiyac duyulur.

Məktəb rəhbərlərini, müəllimləri, təlim-tərbiyə prosesi ilə bilavasitə məşğul olan digər əməkdaşları məktəb həyatının şagirdlər üçün maraqlı təşkil edilməsi, onların (hətta valideynlərin də) məktəbə bağlanması, təhsil məşğulluqlarının təmin edilməsi, uşaqların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi istiqamətində vaxtaşırı diaqnostik qiymətləndirmələrin aparılması və nəticələrə görə hər bir uşaq üçün əsaslandırılmış “mənəvi-psixoloji inkişaf yolu”nun müəyyən edilməsi ciddi düşündürməlidir. Şagirdlərin hələ ibtidai təhsil səviyyəsindən etibarən təşkilatlanmasına xidmət göstərən “Şagird birlikləri”nin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalar üzrə məktəblərdə yaradılması da onların dünyagörüşlərinin və məsuliyyət mədəniyyətinin formalaşmasında, milli-mənəvi dəyərlər zəminində tərbiyə olunmasında, sosial bacarıqlara yiyələnmələrində xüsusi rola malikdir.

Müdriklər demişkən, “Mütaliə bir cəmiyyətin vərdişinə çevrilsə, o cəmiyyət xoşbəxt olar”. Qismən unudulan, “xırda” hesab olunan məsələlərdən biri də uşaq və yeniyetmələrdə mütaliə mədəniyyətinin yaradılması ilə bağlıdır. Etiraf edək ki, hazırkı zamanda əksər uşaqlar bədii ədəbiyyat oxumağa meyl göstərmir, xüsusilə, poeziya ilə maraqlanmırlar. Məktəblərdə də bu vacib problemə diqqət lazımi səviyyədə deyildir. Halbuki şagirdlərin mütaliəyə istiqamətləndirilməsi və həvəsləndirilməsi məktəbin tərbiyə sisteminin üzvi hissəsi kimi dəyərləndirilməlidir. Çünki mütaliə uşaqların dünyagörüşünün, bilik dairəsinin genişlənməsi, intellektual inkişafı, mənəvi-mədəni-estetik dəyərlərə yiyələnməsi və həyati həqiqətlərə obyektiv, ədalətli münasibət bəsləməsində, onların qəlb dünyasının humanist duyğularla zənginləşməsində müstəsna əhəmiyyət kəsb edir. Ona görə də şagirdlər arasında mütaliənin, bədii ədəbiyyatın, ədəbiyyat xadimlərinin təbliği və təşviqinə xüsusi önəm verilməli, tanınmış yazıçılarla uşaqların görüşləri müntəzəm xarakter daşımalıdır. Yeri gəlmişkən, məktəblərin məqsədli şəkildə teatr tamaşalarına aparılması üçün müvafiq təşkilati tədbirlərin görülməsi də ciddi önəm daşımaqla eyni mərama xidmət edir.

Uşaq və yeniyetmələrin, gənclərin tərbiyəolunma sistemindən danışarkən Ulu Öndər Heydər Əliyevin bu ibrətamiz müddəası ətrafında ciddi fikirləşməliyik: “İslam dini bizim müqəddəs dinimizdir, “Qurani-Kərim” müqəddəs kitabımızdır... Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməlidir... Gənclərimizin islam dinini mənimsəməsi üçün lazımi tədbirlər görülməlidir”.

Adətən, hər bir müəllim haqqında danışılarkən, daha çox elmi-nəzəri səviyyəsi, savadı, təcrübəsi qiymətləndirilir. Amma məlumdur ki, müəllimlik təkcə bu keyfiyyətlərdən ibarət deyildir, onun uşaq psixologiyasına bələdliyi, uşaqlarla ünsiyyətqurma, əməkdaşlıqetmə bacarığı və səriştəsi, onların arzu və istəklərinə, meyil-maraqlarına, istedad və qabiliyyətlərinə diqqət, qayğı və həssaslıqla yanaşma, habelə uşaqlarda müşahidə edilən “normadan kənaraçıxma halları”nın, psixoloji dəyişikliklərin səbəblərinin araşdırılması və aradan qaldırılmasında yaxından iştirak da qanunvericiliklə müəllimin ən vacib vəzifə funksiyalarındandır. Bu mənada pedaqoji ali məktəblərin bütün ixtisasları üzrə kurikulumlarına məktəblərdəki psixoloji xidmətin səciyyəvi cəhətlərini özündə birləşdirən təlimati-metodik məzmunlu ayrıca bir bölmənin (kurs) daxil edilməsi, məzunlara diplomla bərabər, həmin kursun mənimsənilməsinə dair xüsusi formada sertifikat verilməsi məqsədəuyğun olardı.

Nəhayət, ağrılı bir məsələ, həddi-büluğa çatmamış məktəbli uşaq və yeniyet--mələrin davranış məsuliyyətinin qanunvericiliklə gücləndirilməsi tədbirləri haqqında. Müasir dövrdə bu, xüsusi yanaşma tələb edən problemlərdən sayılır. Məktəblərdə müəllim-şagird, müəllim-valideyn gərginliyi, bəziləri tərəfindən müəllimə, məktəbə qarşı hörmətsizlik halları baş verir. Ən böhranlı cəhətlərdən biri də odur ki, valideynlər arasında övladlarının etikadankənar hərəkətlərinə göz yuman, hətta haqq qazandıranlar da vardır. Əlbəttə, problemə birtərəfli mövqedən yanaşmaq da düzgün deyil, o mənada ki, çox təəssüf, bəzi müəllimlər tərəfindən də şagird və valideynlərlə münasibətdə yanlışlığa yol verilməsi halları müşahidə olunur.

Bununla belə, həmişə deyirik ki, müəllim cəmiyyətdə ən nüfuzlu və hörmətli şəxsdir, o zaman şagirdin, valideynin yanında, habelə digər məqamlarda müəllimin aşağılanmasına qətiyyən yol verilməməlidir. Müəllim pedaqoji aspektdə səhv buraxıbsa da, yalnız rəhbərlik yanında müzakirə edilməli, yanlış hərəkətin təkrarlanmaması üçün ona lazımi tövsiyələr verilməli, fəaliyyətinə nəzarət olunmalıdır.

Bu gün hamı demokratiyadan danışır, lakin heç də hamı demokratiyanın mahiyyətini düzgün qiymətləndirmir, bir çoxu bu anlayışı ifrat dərəcədə söz, əməl, hərəkət azadlığı mənasında başa düşür. Belə düşünmək nə dərəcədə uyğundur ki, müəllim hər hansı bir şagirdin intizamsız hərəkətinə irad bildirməməli, ona tənbehedici söz deməməlidir, çünki bu halda valideynin etirazı, hətta hədə-qorxusu ilə rastlaşa bilər. Valideyninin müəllimə qarşı bu cür münasibətini görən şagird növbəti dəfə daha qeyri-etik hərəkətlərə yol verməzmi?! Həmin vəziyyətdə müdafiəsiz qalan müəllim, görəsən, hansı hissləri keçirir?! Ümummilli Liderimiz Heydər Əliyevin bu hikmətli sözlərini xatırlatmağı lazım bilirik: “Azərbaycan cəmiyyətində müəllim bu gün də, gələcəkdə də ən hörmətli insan kimi qəbul edilməlidir və müəllimlik peşəsi ən yüksək qiymətə layiq peşədir”.

Təəssüf doğuran bir cəhət də vardır: sinifdə nizamı pozan, nalayiq hərəkətlər edən, müəllimin haqlı tələblərinə məhəl qoymayan şagirdə, yaxud şagirdlərə qarşı digərləri irad bildirmək əvəzinə əksər hallarda seyrçi mövqe tutur, müəllimin müdafiəsinə qalxmırlar.

Düşünürük ki, ümumi təhsilə aid qanunvericilik sənədlərində, ilk növbədə, “Təhsil haqqında” Qanunda, Nizamnamədə müəllimlərin hüquqlarına, xüsusilə, təhsilalanların, eləcə də valideynlərin hüquq və vəzifələrinə yenidən baxılıb həmin sənədlərə onların məsuliyyət və öhdəliklərinin ciddiləşdirilməsi istiqamətində təsirli müddəaların daxil edilməsi məqsədəmüvafiq sayılardı.

Əvvəllər ümumi təhsili bitirən şagirdlərə təhsil sənədi ilə yanaşı, oxuduqları müddətdə davranışlarına dair xasiyyətnamə də verilərdi, çox güman, həmin təcrübə bərpa olunmalıdır. Məzun ali və ya orta-ixtisas müəssisəsinə, yaxud peşə liseyinə qəbul üçün sənəd təqdim etdikdə həmin xasiyyətnamə tələb olunmalı və nəzərə alınmalıdır.



**Aydın ƏHMƏDOV,**
**Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, Əməkdar müəllim**

**P.S. Hüquq sistemində ədalətli yanaşma sərgiləyən “Mötəbərlik prezupsiyası” adlanan anlayış-termin vardır. Mahiyyətcə dəyərli, etibarlı, faydalı bir ideyanın, əməlin, müddəanın, istiqamətin doğruluğu və həqiqiliyinin əksini sübuta yetirməyə ehtiyacın olmadığı anlamına gəlir. Paralellik aparsaq, bu terminin məzmununda ifadə edilən fikrin ümumi təhsillə, bir növ, bağlılığını müşahidə edə bilərik. Yəni ümumi təhsilin başlıca məqsədi və məramı uşaq, yeniyetmə və gənclərin milli-mənəvi dəyərlərə sadiq, əqidəli, vətənpərvər ruhlu, soykökünə bağlı vətəndaşlar timsalında tərbiyə olunması kimi elə bir taleyüklü məsələyə istiqamətləndirilmişdir ki, onun əksi barədə düşünmək belə, sağlam məntiqdən çox-çox uzaqdır. Zaman ötdükcə təhsilin məzmununda müasirliklə əlaqəli müxtəlif dəyişikliklər baş verə bildiyi halda, milli ənənələrimizə söykənən tərbiyə fəlsəfəsi heç vəchlə modernləşməyə məruz qala bilməz.**

**...Bir həqiqət də var ki, keyfiyyətli təhsil, səmərəli və yaradıcı təlim-tərbiyə mühiti yalnız səriştəli, idarəetmə məsələlərinə, pedaqoji problemlərə bələdliyi ilə seçilən, təcrübəli, prinsipial mövqeli rəhbərliyin olduğu, uşaqların təhsilinə əsl vətəndaşlıq duyğuları ilə yanaşan, dövrün tələbləri səviyyəsində elmi-nəzəri və metodik hazırlığa malik peşəkar və qayğıkeş pedaqoji kollektivin formalaşdığı məktəbdə bərqərar ola bilər.**




# "Qələbəmi şəhidlərimizə həsr etdim"

## "Əsas məqsədim bayrağımızı qürurla dalğalandırmaqdır"

**Onun qələbəsini məktəbdə şagird yoldaşları böyük coşqu ilə qarşılamışdılar. O, Türkiyənin Antalya şəhərində muay-tay idman növü üzrə keçirilən yarışda ikincilik əldə edib. İlham Çıraqov 2012-ci ildə Bakıda doğulub. Əslən laçınlıdır. Hazırda Masazırda yerləşən Laçın rayon Çıraqlı kənd tam orta məktəbinin 8-ci sinfində oxuyur. İlham 7 yaşından idmana maraq göstərir. Muay-tay idman növündə məşqlərə başlayır. Gənc idmançı idmanla bərabər ali təhsil də almaq istəyir.**

"İdman sahəsində ailə üzvlərimin dəstəyini hər an hiss edirəm. Atam Elgün Çıraqov peşəkar idmançı və beynəlxalq dərəcəli hakimdir. O, həmçinin mənim məşqçimdir.

2019-cu ildən məşqlərə başlayan İlham muay-tay idman növü üzrə Azərbaycan çempionu, 2 dəfə Bakı şəhər çempionu, eləcə də uşu-sanda idman növü üzrə 2 dəfə Azərbaycan və Bakı çempionu olub.

Uğurları ard-arda yaşayan məktəbli 2025 -ci ildə kunq-fu idman növü üzrə Azərbaycan çempionu tituluna da sahibdir:

"Bu günə qədər 40 döyüş keçirmişəm. Müxtəlif turnir və beynəlxalq səviyyəli yarışların qalibi, mükafatçısı olmuşam. Yarışlarımın birində televiziyadan məni izləyən nənəm göz yaşlarını saxlaya bilməyib.

Laçın məktəblisi son dəfə 30-a yaxın ölkənin idmaçısının qatıldığı yarışda cəmi 40 saniyəlik döyüşlə yarımfinala yüksəlib: "25-29 mart tarixlərində Türkiyənin Antalya şəhərində muay-tay idman növündə açıq beynəlxalq kubok üzrə yarış təşkil olunmuşdu. Avropa Muay-tay Federasiyasının təşkilatçısı olduğu turnirdə ikincilik əldə etdim. İlk döyüşüm 40 saniyə çəkdi, yarımfinalda qırğızıstanlı idmançını nokaut edib finala yüksəldim. Finalda isə yerli rəqiblə qarşı-qarşıya gəldim. Bəzən gözlənilməz qərarlar da olur. Amma ruhdan düşmək lazım deyil".

Avropa ikincisi olan İlham deyir ki, əsas məqsədi vətəninə, dövlətinə, xalqına xidmət etmək, bayrağımızı başqa ölkələrdə qürurla dalğalandırmaqdır:

"Yarışa getməmişdən əvvəl demişdim ki, mən qələbəylə geri dönəcək və bu döyüşümü şəhidlərimizə həsr edəcəyəm. Sözümdə durdum".

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

**aşağıda adıçəkilən kafedrada vakant vəzifələri tutmaq üçün müsabiqə**

**ELAN EDİR:**

*Sosial-mədəni fəaliyyət - Dosent 2 yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

# Samir Babayev beynəlxalq jurnala redaktor köməkçisi təyin edilib

**Bu təyinat Qarabağ Universitetinin beynəlxalq akademik fəaliyyətinin və elmi əməkdaşlıqlarının genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır**



**Qarabağ Universitetinin Tibb və Sağlamlıq Elmləri fakültəsinin dekanı və Qarabağ Universiteti Klinikasının baş direktoru Samir Babayev Böyük Britaniyada fəaliyyət göstərən "Oxford University Press" tərəfindən yayımlanan "Human Reproduction Open" jurnalına redaktor köməkçisi vəzifəsinə təyin olunub.**

"Azərbaycan müəllimi" xəbər verir ki, "Human Reproduction Open" reproduktiv tibb sahəsində aparıcı elmi jurnallardan biridir və "European Society of Human Reproduction and Embryology" ilə əlaqəlidir. Jurnalın 2024-cü il impakt faktoru 11.1 təşkil edir və "Web of Science" (SCIE) üzrə mama-ginekologiya sahəsində 141 jurnal arasında 2-ci, "Scopus" (CiteScore) üzrə isə 210 jurnal arasında 2-ci yerdə qərarlaşıb.

S.Babayev reproduktiv endokrinologiya və sonsuzluq sahəsində ABOG sertifikatlı mütəxəssisdir və əvvəllər "Mayo Clinic"də fəaliyyət göstərib. Onun elmi maraq sahələrinə ovarial toxuma kriopreservasiyası, oosit və embrion keyfiyyəti, eləcə də reproduktiv cərrahiyyədə innovativ yanaşmalar daxildir.

Bu təyinat Qarabağ Universitetinin beynəlxalq akademik fəaliyyətinin və elmi əməkdaşlıqlarının genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 25753 **Sifariş:** 480

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Lerik rayon** Almu kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1988-ci ildə bitirmiş Hüseynova Yeganə Bilal qızına verilmiş A-370558 nömrəli ümumi orta təhsil haqqında attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qırmızı qəsəbə 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş İsakov Elçin Binyaminoviçə verilmiş A-280770 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Cəhri kənd 1 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Mirzəyev Bəxtiyar Rəhim oğluna 1997-ci ildə verilmiş A-211066 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Didivar kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş İsmayılova Qızbəst Məzahir qızına verilmiş B-242810 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Cəhri qəsəbə 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş İsmayılov Əli Nemət oğluna verilmiş B-583456 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** II Şahsevən kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Hacıyeva Nuranə Məhərrəm qızına verilmiş A-648161 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2012-ci ildə Təhməzli Sahil Hüseyn oğluna verilmiş B-233573 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şamaxı Dövlət Regional Kolleci** tərəfindən 2024-cü ildə Xeyrullayeva Aytac Seymur qızına verilmiş AA-213422 nömrəli subbakalavr diplomu və diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yuxarı Noxudlu kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Həsənova (Həmidova) Zərnişan Həsən qızına verilmiş 174926 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 145 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Cəfərov Uğur Nadir oğluna verilmiş E-548095 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2020-ci ildə Gənciyeva Leyla Tofiq qızına verilmiş AA-137857 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qəbələ şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş İsgəndərli Əfqan İsgəndər oğluna verilmiş B-629228 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** G.Əsgərova adına məktəb-lisey kompleksi 2013-cü ildə bitirmiş Axundzadə Rəna Orxan qızına verilmiş A-191139 nömrəli tam orta təhsil haqqında attestat idiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Günəşli kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Əliyev Sadiq Mahir oğluna verilmiş E-296958 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 37 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Əmiraslanova (Rzayeva) Aysel Aydın qızına verilmiş B-613818 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 19 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Orucov Fariz Əlövsət oğluna verilmiş B-429158 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 11 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Məmmədov Nicat Fizuli oğluna verilmiş A-435134 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 41 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Həsənli Aydan Zöhrab qızına verilmiş A-129261 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 14 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Hacıyev Elvin Fizuli oğluna verilmiş A-127943 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 14 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Qurbanov Tural Samir oğluna verilmiş E-055061 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 41 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Cəfərova Gülnar Səməd qızına verilmiş 250165 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Nəhmətzadə Xəzər Elçin oğluna verilmiş E-460687 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 6 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Eyvazov Fərhad Ruslan oğluna verilmiş A-443238 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Ağayev Səxavət Ağa Hacı oğluna verilmiş B-289112 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi** (keçmiş Dövlət Dəmir Yolu Liseyi) tərəfindən 2021-ci ildə Səfərli Vəfadar Ramin oğluna verilmiş A-149918 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şahbuz rayon** Kükü kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Məmmədova (Səfərova) Nəzakət Əli qızına verilmiş AK-569493 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Qəriblər kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Mirzəyeva Firuzə Natiq qızına verilmiş 311582 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əzimli Ağaibrahim Vüqar oğluna verilmiş E-469085 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 8 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Eyvazova Samirə Sadəddin qızına verilmiş Ə-0683 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**"Zəngi" Liseyini** 2006-cı ildə bitirmiş Hüseynova Sahilə Səfər qızına verilmiş B-258190 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Şəhriyar kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Ağayeva (Təmoyeva) İlahə Fətulla qızına verilmiş A-169926 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Yenikənd kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Səfərova Afayət Seyyaf qızına verilmiş A-427898 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2006-cı ildə Səfərova Afayət Seyyaf qızına verilmiş BB-II-027395 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Düyərli kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1992-ci ildə bitirmiş Nuruyev Nicat Qədim oğluna verilmiş 155624 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli məktəb-liseyi 1992-ci ildə bitirmiş Zeynalova Səbinə Sədi qızına verilmiş A-248984 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Cəlalova (Nuralıyeva) Günel Ağahüseyn qızına verilmiş B-133613 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Nurməmmədova (Gülməmmədova) Gövhər İlham qızına verilmiş A-111182 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Məmmədqasımlı kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Mikayılova Nadirə Mikayıl qızına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin X sinfini 1989-cu ildə bitirmiş Mirzəyeva Zəminə Əlihüseyn qızına verilmiş A-639133 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Üçtəpə kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Rüstəmova Gülnarə Səyyad qızına verilmiş A-471213 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 5 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Tağıyeva Zərnigar Yusif qızına verilmiş B-209089 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli baza tibb məktəbi** tərəfindən 2000-ci ildə Nəbiyeva Səfurə Vahid qızına verilmiş AB-II-064562 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Hacıyev Qoça Müzəffəroviçə verilmiş AK-478548 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Hüseynova Nərgiz Çingiz qızına verilmiş B-660760 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Yeni Suvagil kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Sultanov Nazim Sultan oğluna verilmiş 938368 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** Humanitar fənlər gimnaziyanın IX sinfini 2010-cu ildə bitirmiş Bayramlı Süsən Etibar qızına verilmiş A-992344 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** Əliabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1982-ci ildə bitirmiş Şıxbiyadov Həsrət Şıxbiyad oğluna verilmiş 128836 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2017-ci ildə Sadıqov Mirsənan Əlövsət oğluna verilmiş A-129089 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 95 nömrəli tam orta məktəbi 1983-cü ildə bitirmiş Yusubov Fazil İsmayıl oğluna verilmiş AИ-764330 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 6 nömrəli məktəb-liseyi 1993-cü ildə bitirmiş Babacanova Şəlalə Laçın qızına verilmiş A-020310 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Hacıyev Əli Firudin oğluna verilmiş AN-116121 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Qarağacı kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Babayeva Günay Eyruz qızına verilmiş B-563895 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Aqrar Universiteti** tərəfindən 2007-ci ildə Abdullayeva Şəhla Fərhad qızına verilmiş B-089455 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfundən 2004-cü ildə İbrahimov Sərxan Ələsən oğluna verilmiş B-012984 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Babayeva (Hüseynova) Səadət Aslan qızına verilmiş A-061951 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.